MULTİKULTURALİZM DƏYƏRLƏRİNİN KİTABXANA-İNFORMASİYA MƏKANINDA TƏBLİĞİ PROBLEMLƏRİ

Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Müasir dünyada siyasi və humanitar kataklizmlərin baş verdiyi bir şəraitdə multikulturalizm ideyalarının təbliğinə böyük ehtiyac hiss edilməkdədir. Məhz buna görədir ki, multikulturalizm ideyalarının geniş intişar tapmasına böyük səy göstərən, bu ideyaların elmi-nəzəri əsaslarının formalaşmasına qiymətli töhfələr verən möhtərəm Prezidentimiz 2016-cı ilin "Azərbaycanda multikulturalizm ili" elan edilməsi haqqında fərman imzalamışdır. Bu fərman multikulturalizmin dövlət siyasəti, həyat tərzi olan bir ölkənin bütün dünyaya çağırışıdır. Bu çağırış planetimizdə siyasi və humanitar kataklizmlər baş verdiyi bir dövrdə, bəşəriyyətin başının üstündə dəhşətli bir kabus dolaşdığı bir zamanda edildiyindən olduqca böyük siyasi və humanitar əhəmiyyətə malikdir.

Dünyada, xüsusilə demokratiyanın beşiyi sayılan Avropa ölkələrində multikulturalizmdən uzaqlaşmaq, dünya xalqları arasında ayrı-seçkilik toxumu səpmək, ikili standartların tətbiqinə geniş meydan vermək, millətçilik, irqçilik, diskriminasiya, nifrət və dünya dinləri arasında ixtilaf yaratmağa meyil göstərmək, şovinizm siyasətini həyata keçirmək, ksenofobiya, islamofobiya və digər fobiyalar kimi mürtəce baxışların formalaşdığı bir şəraitdə multikulturalizm ideyalarının təbliği olduqca mühüm siyasi, ideoloji və mədəni əhəmiyyət kəsb edir.

Bəşəriyyətin yaratmış olduğu ideyalar, fəlsəfi-siyasi konsepsiyalar içərisində multikulturalizm ideyası insanlığa məxsus ən humanist anlayış kimi böyük şöhrət qazanmışdır.

Multikulturalizm-çoxmədənilik, müxtəlif mədəniyyətlərin bir yerdə yaşadığı cəmiyyəti təyin edən anlayışdır. Təxminən orta əsrlərdə yaranan, tədricən inkişaf edib formalaşan multikulturalizm XVIII yüzillikdən başlayaraq daha geniş miqyasda inkişaf etmiş, yeni-yeni çalar kəsb edərək müxtəlif dövlətlər, ölkələr, xalqlar arasında beynəlxalq dostluq əlaqələrinin qurulmasında, idarə olunmasında əsas elmi-nəzəri mənbə kimi inkişaf tapmışdır.

Orta əsrlərdə Qərbi Avropa ölkələrində, tədricən bütün dünyada feodalizmin zəiflədiyi, kapitalizmin inkişafa başladığı zaman baş vermiş intibah, reformasiya və maarifçilik dövrlərində də multikulturalizm ideyaları inkişaf edib təkmilləşmə prosesini yaşamışdır. Öz xarakterik xüsusiyyətləri etibarilə olduqca mütərəqqi, kamillik, alimlik, humanizm dövrü kimi qiymətləndirilən intibah dövründə də multikulturalizm ideyalarından geniş surətdə istifadə edilməsi onun proqressiv əhəmiyyətini və miqyasını daha da genişləndirmiş, dünya prosesinə çevrilməsini təmin etmişdir. Vilyam Şekspirin, Leonardo da Vinçinin, Frensis Bekonun və s. əsərləri dünya elmində, təhsilində, ədəbiyyat və incəsənətində mühüm əhəmiyyət kəsb edən əsərləri humanist intibahın ideya-fəlsəfi əsası kimi formalaşdırmışdır.

Azərbaycan alimlərinin araşdırmalarına görə, intibah ölkəmizdən də yan keçməmişdir. Azərbaycanda intibahın tarixi XII əsrdən başlayır. Azərbaycan intibahının əsas ideya istiqamətləri dahi şair Nizami Gəncəvinin yaradıcılığında öz parlaq həllini tapmış, sonra isə görkəmli mütəffəkkirlər Xaqaninin, Nəsiminin, Füzulinin əsərlərində davam etdirilmişdir. Ümumiyyətlə, klassik ədəbiyyatımızın mövzu dairəsində multikulturalizm ideyaları tolerantlıq, ayrı-ayrı xalqları dostluq, qardaşlıq ideyaları ətrafında birləşdirmək arzuları, dinləri bir-birinə yaxınlaşdırmaq cəhdləri geniş yer almış, müxtəlif xalqların adət-ənənələrinə hörmət və ehtiram yüksək qiymətləndirilmişdir.

XVI əsrdə Qərbi və Mərkəzi Avropa ölkələrini əhatə edən reformasiya hərəkatı Avropa ölkələrinin ictimai-siyasi həyatına olduqca mütərəqqi təsir göstərmiş, dini hegemonluğa, kilsə həyatına böyük zərbə vurmuş, cəmiyyətdə elmin, təhsilin, mədəniyyətin rolunun artmasına ciddi təsir göstərmişdir. Reformasiya hərəkatının həyata keçirdiyi tədbirlər içərisində multikulturalizm ideyaları mühüm yer tutur. Reformasiya hərəkatı xalqların təhsili, tərbiyəsi, hüquq bərabərliyi, mədəni inkişafı, tolerantlıq sahəsində əldə etdiyi mütərəqqi nəticələr multikulturalizmin əsaslarının möhkəmlənməsinə müsbət təsir göstərməyə başlamışdır.

XVII-XVIII əsrlərdə multikulturalizm ideyalarının daha da təkmilləşməsinə, bir anlayış kimi formalaşmasına dünyada başlanan maarifçilik hərəkatı da böyük təsir göstərmişdir. İntibah və reformasiya dövründən sonra dünyada başlayan maarifçilik hərəkatı elmə, təhsilin və mədəniyyətin inkişafına böyük töhfələr verdi, cəmiyyətin maariflənməsi kimi olduqca mütərəqqi, humanist ideyaların həyata keçirilməsində mühüm rol oynadı. Maarifçilik hərəkatı bilavasitə multikulturalizm ideyalarının inkişaf etdirilməsinə yaxından kömək etməklə bu mühüm ideyaların elmi-nəzəri əsaslarının möhkəmlənməsinə səbəb oldu. Feodalizmə qarşı yönəldilmiş ictimai-siyasi cərəyan olan maarifçilik mənfi halları, ədalətsizlikləri, elmi, humanist, əxlaqi prinsiplərin yayılması və təbliği yolu ilə dəyişdirməyə can atırdı. XVIII əsrə qədər davam edən bu cərəyan, demək olar ki, dünyanın bütün ölkələrini əhatə etmiş, təhsilin inkişafına, əhalinin maarifləndirilməsinə, şüur səviyyəsinin yüksəldilməsinə təsir göstərmişdir.

Tarixi əxlaq və siyasət məktəbi hesab edən maarif xadimləri, orta əsrləri nadanlıq, fanatizm, dini xurafat, cəhalət dövrü kimi qiymətləndirir, bu bəladan bəşəriyyətin xilas edilməsində maarifçiliyi mühüm vasitə hesab edirdilər. Bəşəriyyətin işıqlı gələcəyinə inanan böyük alimlərin, mütəfəkkirlərin, yaradıcı ziyalıların maarifçilik hərəkatına qoşulması onun əhəmiyyətini daha da artırdı. Maarifçilik hərəkatı xüsusilə multikulturalizmin əsas bazasını təşkil edən mədəniyyətin inkişafına mühüm təsir göstərmiş, insan tərbiyəsində onun həlledici roluna xüsusi qiymət vermişdir.

Ümumbəşəri sərvətləri özündə cəmləşdirən mədəniyyət bəşər tarixinin çox erkən dövrlərində meydana gəlmişdir. Meydana gəlib formalaşdığı ilk gündən mədəniyyət sosial hadisə kimi insanların həyat və fəaliyyəti ilə sıx bağlı olmuş, insanın əli və əqli ilə yaratdığı bütün nailiyyətləri ümumiləşdirmiş, qoruyub saxlamış, nəsildənnəsilə ötürülməsində yaxından iştirak etmişdir.

Cəmiyyətin inkişafında, onun təkmilləşməsində mühüm rol oynayan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük möcüzədir. Bəşəriyyətin zəkası, biliyi və tarixən yaradılmış təcrübəsi öz ifadəsini mədəniyyətdə tapır. Böyük alman filosofu Hegelin dediyi kimi, xalqların müdrikliyini öyrənməyin yeganə açarı mədəniyyətin əlindədir. Mədəniyyətin yaranması və inkişafı bəşər cəmiyyətinin təşəkkülü ilə sıx bağlı olmuşdur, o, cəmiyyətin inkişafının təməl daşıdır. Orta əsrlərdə və XIX-XX əsrlərdə dünyanın ayrı-ayrı xalqlarının mədəniyyətinin inteqrasiyası prosesi, bəşər mədəniyyətinin yaranıb formalaşmasına, məzmununa mühüm təsir göstərmiş, onun bütövlüyünü, humanizmini, insanpərvərliyini təmin etmiş, xalqlar birliyinin və dostluğunun təməl daşına çevrilmişdir.

Beləliklə, mədəniyyət—bəşəriyyətin ictimai-tarixi inkişaf prosesində yaratmış olduğu maddi və mənəvi sərvətlərin məcmusudur. Mədəniyyət, həmçinin bu sərvətlərin yaradılmasında, qorunub saxlanılmasında, istifadə edilməsində və gələcək nəsillərə çatdırılmasında da yaxından iştirak edir.

Mürəkkəb ictimai hadisə olan mədəniyyətin iki növü vardır: maddi mədəniyyət, mənəvi mədəniyyət.

Maddi mədəniyyət cəmiyyətin maddi istehsalından, texnikadan, maddi nemətlər istehsalına xidmət edən bütün vasitələrdən, tarixi abidələrdən, muzeylərdən və s. ibarətdir.

Mənəvi mədəniyyət isə cəmiyyətin müəyyən inkişaf pilləsində, tarixi şəraitdə meydana gəlib inkişaf edən xalq maarifindən, elmi işlərdən, fəlsəfədən, əxlaqdan, ədəbiyyatdan, teatrlardan və digər mədəni-maarif müəssisələrindən ibarətdir. Mədəniyyət insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə etdiyi, topladığı biliklərin, təcrübənin, vərdişlərin, habelə mənəvi sərvətlərin gələcək nəsillərə çatdırılmasında da mühüm rol oynayır. Təhsil, tərbiyə, xalq maarifinin inkişafı, mədəni quruculuq sahəsində görülən işlər cəmiyyətin əsas sahəsinin göstəricisidir. Cəmiyyətin və insanın həyatında mühüm yer tutan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük sərvətdir və bütün dünyaya məxsusdur.

Mədəniyyət çoxşaxəli, mürəkkəb bir fenomen olduğundan sistem kimi özünü göstərir və bir çox xüsusiyyətlərə, funksiyalara malikdir. Mədəniyyətin formaca milli, məzmunca beynəlmiləl olması, bütün bəşəriyyətə mənsub olması, mədəniyyətlərarası inteqrasiya və kommunikasiyası prosesinin daimi işlək olması, inteqrasiya prosesində müxtəlif xalqların adət-ənənələrinin ön plana çəkilməsi, insan şəxsiyyəti və azadlıqlarının qorunması, tolerantlıq, yüksək humanist, əxlaqi keyfiyyətlərin, insanpərvərliyin diqqət mərkəzində saxlanılması onun ümumbəşəri fenomenə çevrilməsini təmin edir. Mədəniyyətin dünya xalqları, cəmiyyətlər tərəfindən yaradılmış təsisat, institut kimi fəaliyyət göstərməsi cəmiyyətin yaşaması və dağılmaqdan qorunması üçün şərait yaradır.

Beləliklə, mədəniyyət cəmiyyətin yaşaması və inkişafı üçün lazım olan bütün maddi-texniki bazanın yaradılmasına, biliklər əldə etməyə can atan insanların təcrübəsinin toplanmasına, cəmiyyəti idarə etmək üçün sosial təşkilatların yaranmasına və fəaliyyətinin təkmilləşməsinə, müxtəlif xalqların adət-ənənələrinin qorunub saxlanmasına, insanların əxlaq normalarının qanuniləşməsinə xidmət edən institutdur. Mədəniyyətin varlığı və bütövlüyü üçün üç aspektin (texniki baza, insanlar, onların təcrübəsi və sosial təşkilat) birlikdə fəaliyyət göstərməsi zəruridir.

Nəticə olaraq demək olar ki, mədəniyyət cəmiyyətin idarə olunmasının baza prinsiplərinin əsas vasitəsidir. Cəmiyyətdə yaranan bütün idarəçilik prinsipləri, siyasi-fəlsəfəsi konsepsiyalar mədəniyyətin qanunauyğunluğuna uyğun fəaliyyət göstərməlidir.

Qeyd etdiyimiz kimi, orta əsrlərdə meydana gələn və bəşəriyyətin inkişafına böyük və həlledici təsir göstərən cərəyanlar və hərəkatlar: intibah, reformasiya və maarifçilik bəşər mədəniyyətinin daha da inkişaf etdirilməsinə, yeni məzmun və mahiyyət kəsb etməsinə qiymətli töhfələr verdi. Mədəniyyətin əldə etdiyi bu nailiyyətlər orta əsrlərdə və XVIII-XIX əsrlərdə formalaşan multikulturalizm siyasi-fəlsəfi konsepsiyasının baza prinsiplərinə daxil olmuş, onun məzmununu daha da zənginləşdirmiş, elmi-nəzəri əsaslarının formalaşmasına, mahiyyətinin aydınlaşmasına mühüm təsir göstərmiş, predmetinin müəyyənləşdirilməsinə kömək etmişdir. Multikulturalizm bir siyasi-fəlsəfi konsepsiya kimi insanlığın tərəqqi və inkişafına xidmət edən humanitar-ictimai fənnə çevrilmişdir. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların zəruri aləti kimi digər mədəniyyətlərin mahiyyətini, xarakter xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, müxtəlif xalqlara hörmət, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil.

Azərbaycan tarixən multikulturalizm ideyalarına sadiq bir ölkə olmuş, xalqımız öz xarakterik xüsusiyyətləri, adət-ənənələri, tolerantlığı, beynəlmiləlçiliyi, müxtəlif xalqlara, dinlərə müsbət münasibəti ilə fərqlənmiş, ölkəmiz xalqlar dostluğunun məkanına çevrilmişdir.

Bu məkan bütün dünyada multikulturalizm bərqərar olduğu müxtəlif xalqların, dinlərin, dostluq, qardaşlıq şəraitində yaşayan humanizmə, tolerantlığa, insanlığa xidmət edən Azərbaycan məkanıdır. Ancaq çox təəssüf ki, böyük problemlərlə üzləşən müasir dünyada multikulturalizmə qarşı fikirlər formalaşmağa başlamışdır.

Avropa və bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb vəzifə olduğunu bəhanə edərək ondan imtina etmişlər. Halbuki özlərini mədəniyyətin beşiyi hesab edən bu ölkələrdə multikulturalizm ideyaları əleyhinə yeni müstəmləkəçilik, bölünüb qurtarmış dünyanı yenidən bölmək, xalqlar arasında ayrıseçkilik, irqçilik, dinlər arasında qarşıdurma, dini düşmənçilik ideyalarını təbliğ etmək, İslam dini ilə xristian dinləri arasında düşmənçilik toxumu səpmək, ikili standartlar tətbiq etmək meyilləri güclənməkdədir. Hələ 90-cı illərdə multikulturalizmin dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilməsini zəruri hesab edən ulu öndər Heydər Əliyev yazırdı: **"Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".**

Məhz buna görədir ki, Azərbaycan mədəniyyətlərin və dinlərin dialoqunun, tolerantlığın tərəfdarı kimi çıxış edir. Bu məqsədlə ölkəmizdə Beynəlxalq humanitar forumlarda dünyanın görkəmli alimləri, Nobel mükafatı laureatları, siyasətçilər, dövlət xadimləri iştirak etmişlər. Forumlarda dünyanı maraqlandıran problemlər müzakirə edilmişdir. Çox sevindirici haldır ki, dünyanın intellektual elitasının diqqət yetirdiyi problemlər içərisində multikulturalizm paradiqması əsas müzakirə obyektinə çevrilmişdir. Multikulturalizm paradiqması XX yüzilliyin axırlarından etibarən mədəniyyət, indentiklik, hüquq, din, icma, millət, tolerantlıq, kulturoloji və digər bəşəri problemləri sivil dünyanın gələcək inkişafı naminə əlaqələndirir. Multikulturalizm dəyərlərinin qloballaşmaqda olan dünyanın bütün ölkələri və xalqları tərəfindən yüksək qiymətləndirilməsi multikulturalizmin Azərbaycanın dövlət siyasətinə, həyat tərzinə çevrilməsi haqqında böyük iş görən Azərbaycanın dünya şöhrətli Prezidenti cənab İlham Əliyevin xidmətləri danılmazdır. İlham Əliyev öz çıxışlarında və multikulturalizm haqqında imzaladığı dövlət sərəncamlarında multikulturalizmin müasir dünyanın mürəkkəb problemlərlə üzləşdiyi bir şəraitdə böyük xilasedici əhəmiyyətini diqqətə çatdırmış, elmi nəzəri əsaslarının hazırlanmasına böyük töhfələr vermiş, dünyanın bütün sülhsevər insanlarının rəğbətini qazanmışdır.

Azərbaycan Respublikası dünyanın siyasi mərkəzlərindən birinə çevrilmişdir. 2016-cı ilin 25-27 aprelində BMT-nin qərarı ilə BMT Sivilizasiyalar Alyansının VII Qlobal forumunun Bakıda keçirilməsi dediklərimizə parlaq nümunədir. Bu forumda dünyanın 140 ölkəsindən 1500-dən artıq görkəmli alimlərin, dövlət və ictimai xadimlərin, BMT-nin aparıcı təşkilatlarının iştirakı forumun beynəlxalq əhəmiyyətinin, forumda qəbul edilmiş bəyənnamənin bəşəriyyətin işıqlı gələcəyinə xidmətinin bariz sübutudur.

Forumda müzakirə edilən məsələlər içərisində multikulturalizm siyasi-fəlsəfi konsepsiyasının mühüm yer tutması və bu konsepsiyaya yüksək qiymət verilməsi, multikulturalizm ideyalarının bütün dünya üçün, bəşəriyyət üçün böyük xilasedici, işıqlı gələcəyə xidmət etməsindən xəbər verir.

Forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: **"Multikulturalizmin alternativi yoxdur. Əlbəttə, bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər, ancaq müsbət nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir".**

Respublikamızın bütün dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilən və müdafiə olunan multikulturalizm sahəsində əldə etdiyi böyük nailiyyətlər beynəlxalq aləmdə xalqımızın, dövlətimizin imicini xeyli yüksəltmişdir. Məhz buna görədir ki, əldə edilən təcrübənin multikulturalizm dəyərlərinin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təbliğinə böyük ehtiyac duyulmaqdadır.

Respublikamızın bütün ideoloji, informasiya, mədəni-maarif və təhsil müəssisələri və digər humanitar təşkilatlar multikulturalizm ideyalarının təbliği prosesində yaxından iştirak etməli, təbliğatın müxtəlif forma və üsullarından istifadə etməlidirlər. Multikulturalizm ideyalarının kütləvi təbliği üçün yaxşı olardı ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Multikulturalizm-Azərbaycanın dövlət siyasəti, həyat tərzidir" mövzusunda təbliğat xarakterli plakatlar çap edib bütün ideoloji, informasiya, mədəni-maarif sahələrini, ilk növbədə isə kitabxanaları təmin etsin. Belə plakatlar kitabxanalarda yaradılan "Multikulturalizm" guşələrində görkəmli yerlərdən asılmalı, daimi oxucular arasında təbliğ olunmalıdır.

Kitabxanaların multikulturalizmin təbliği sahəsində apardığı işləri ümumiləşdirmək, qabaqcıl iş təcrübəsini yaymaq məqsədilə "Mədəniyyət" qəzetində və "Mədəni-maarif" jurnalında "Multikulturalizm və kitabxanalar" daimi rubrikası açılmalıdır. Həmçinin kitabxanalar şəbəkəsi olan nazirliklərdə, idarə və müəssisələrdə kitabxana işçilərinin vaxtaşırı təcrübə mübadiləsini aparmaq və qabaqcıl təcrübəni yaymaq məqsədilə metodik müşavirələr keçirilməlidir. Belə müşavirələrdə görkəmli alimlərin, yaradıcı ziyalıların çıxışları təşkil edilməlidir.

Respublikamızda multikulturalizm ideyalarının təbliği, xalqımızın multikulturalizm dəyərləri ruhunda tərbiyə edilməsi daimi xarakter daşıdığından mədəniyyət, mədəni-maarif, kitabxanaçı kadrlar hazırlayan ali və orta ixtisas məktəblərinin son kurslarında multikulturalizm və mədəniyyət mövzusu tədris edilməlidir. Elektron informasiya bazasının, elektron kitabxanaların, elektron kataloqların, elektron kartotekaların yaradılması zərurəti də yaranmışdır. Göstərilən elektron vasitələr Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində, respublika əhəmiyyətli kitabxanalarda, informasiya mərkəzlərində yaradılmalı və internetə qoyulmalıdır. Elektron vasitələrin yaradılmasına ideoloji müəssisələr, AMEA-nın institutları, təhsil sisteminin əməkdaşları elmi və metodiki kömək göstərməlidir.

Multikulturalizm ideyalarının təbliğində ən məsuliyyətli vəzifə geniş oxucu auditoriyasına, təbliğat vasitələrinə, ilk növbədə qiymətli kitab fonduna, elektron vasitələrə malik olan kitabxanaların üzərinə düşür. Respublikamızda multikulturalizm ideyalarının təbliği daimi xarakter daşıdığından kitabxanalar yeni təbliğat vasitələrinin metod və üsullarından yaradıcılıqla istifadə edərək, əhaliyə kitabxana-informasiya xidmətinin elmi əsaslarına söykənən, həm kitabxananın özündə, həm də virtual üsulla xidmət göstərməlidir.

Məlumdur ki, respublikamızda əhaliyə kitabxana-informasiya xidməti müxtəlif tipli və növlü kitabxanalar tərəfindən həyata keçirilir. Bu şəbəkəyə Milli kitabxana, respublika əhəmiyyətli kitabxanalar, AMEA-nın kitabxana şəbəkəsi, ayrı-ayrı idarə və müəssisələrin, nazirliklərin kitabxanaları daxildir. Ölkəmizdə multikulturalizm təbliğatı daimi xarakter daşıdığından kitabxanalar zəngin kitab fondunun yaradılmasına xüsusi diqqət yetirməli, respublikamızda və xarici ölkələrdə nəşr edilən kitabların planlı, ardıcıl əldə edilməsini kitabxana fondunun yeni ədəbiyyatla komplektləşdirilməsini həyata keçirməlidir. Kitab fondu komplektləşdirilərkən multikulturalizmin dəyərlərini özündə əks etdirən ədəbiyyat ön plana çəkilməli, oxucu marağının öyrənilməsi yolu ilə ən yaxşı ədəbiyyat alınmalı və təbliğ edilməlidir. Məlumdur ki, kitabxana fondlarının komplektləşməsi maliyyə vəsaitindən asılı olduğundan rəhbər təşkilatlar, kitabxanalar maliyyələşdirilərkən bu mühüm cəhəti diqqətdən qaçırmamalıdırlar. Bütün təbliğat vasitələrindən öz üstünlükləri ilə fərqlənən kitabın böyük qüvvə olması unudulmamalıdır.

Kitabxanaçı multikulturalizm ideyalarının müntəzəm təbliğ edilməsinin zəruriliyini nəzərə alaraq kitabxana binasının girişində multikulturalizm guşəsi yaratmalıdır. Bu guşələrdə multikulturalizm dəyərlərinə həsr edilmiş plakatlar, kitablar, dövri mətbuat materialları, qəzet və jurnallar, informasiya materialları, məlumat-biblioqrafiya vasitələri, həmçinin elektron vasitələr olmalıdır. Guşələrlə yanaşı, kitabxanalarda kitabların, dövri mətbuat sərgilərinin hazırlanmasını da nəzərdə tutulmalıdır. Sərgilərin bədii cəhətdən yüksək zövqlə tərtib edilməsinə diqqət yetirilməli, materialların məzmununa uyğun sitatlarla təmin edilməlidir. Daimi və mövzu sərgilərində ulu öndər Heydər Əliyevin əsərlərindən, Prezidentin fərman və sərəncamlarının, rəsmi dövlət sənədlərindən, görkəmli dövlət xadimlərinin, mütəxəssislərin əsərlərindən iqtibaslarla təmin edilməlidir.

Kitabxanalar ulu öndər Heydər Əliyevin multikulturalizm dəyərlərinin elmi əsaslarının əsas bazasını təşkil edən "Azərbaycançılıq fəlsəfi konsepsiyası" haqqında kitab sərgilərinin keçirilməsinə, bu konsepsiyanın xalqımızın milli ideologiyası kimi öyrənilməsinə ciddi diqqət yetirməlidir. Ölkəmizdə informasiya cəmiyyəti şəraitində multikulturalizm ideyalarının təbliğində elektron vasitələrdən istifadə də mühüm əhəmiyyət kəsb edir. Elektron vasitələrdən istifadə prosesinin məqsədyönlü və mərkəzləşdirilmiş şəkildə, elektron vasitələrin internetə qoyulması qaydası ilə aparılması, oxucuların suallarına, sorğularına, tələbatlarına daha səmərəli xidmət göstərməyə şərait yaradar.

Mərkəzləşmiş elektron xidmət məqsədilə multikulturalizmə aid elektron kitabxanalar, elektron kataloqlar, elektron kartotekalar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində, M.F.Axundov adına Milli Kitabxanada, respublika əhəmiyyətli kitabxanalarda, Mərkəzləşmiş Kitabxana sistemlərində yaradıla bilər. Elektron vasitələrin internetə qoyulması multikulturalizmə dair ədəbiyyat təbliğinin, kitabxana-informasiya təminatının yaxşılaşdırılmasına, oxucu fəallığının artmasına, oxucuların vaxtına qənaət edilməsinə müsbət təsir göstərə bilər.

Kitabxanalarda multikulturalizmə dair oxucu konfransları, tematik gecələr, müşavirələr, məruzələr və yeni kitabların təqdimatının keçirilməsi əvvəlcədən hazırlanmış plan əsasında həyata keçirilməkdədir. Belə tədbirlərdə respublikamızın görkəmli alimlərinin, yaradıcı ziyalılarının, ədəbiyyat və incəsənət xadimlərinin, gənc şair və yazıçıların gücündən istifadə etmək bu mühüm tədbirlərin səmərəliliyinin artırılmasını təmin edər.

Yekun olaraq mən çoxdan düşündüyüm bir problemin həllinin zəruriliyini demək istəyərdim.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Yazıçılar Birliyi arasında həyata keçirilən birgə layihəyə əsasən yazıçıları və şairləri, xüsusilə gənc yazarları ayrı-ayrı kitabxanaların işində iştirak etmək, oxucular qarşısında öz yeni əsərləri ilə çıxış etmək, oxucularla təmasda olmaq, onları kitabxanaların işinə kömək etmək üçün istiqamətləndirmək, cəmiyyətdə gedən müasir problemlərlə tanış etmək məqsədilə onları kitabxanaların işinə cəlb etmək yerinə düşərdi. Bu, oxucuların, xüsusilə gənclərin mütaliə marağını artırmaqla, onların vətənini, xalqını sevən bir vətəndaş kimi, bir vətənpərvər insan kimi tərbiyəsinə müsbət təsiri xeyli yüksəldərdi.

Dünyanın bir çox ölkələrində multikulturalizmə biganə münasibət yarandığı, multikulturalizm dəyərlərindən uzaqlaşma meyli artdığı bir şəraitdə respublikamızda multikulturalizm ideyalarının, dəyərlərinin inkişaf etdirilməsi, daha da möhkəmləndirilməsi üçün möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, "Multikulturalizm Azərbaycanın dövlət siyasətinə və həyat tərzinə çevrilmişdir".

Azərbaycan tarixinə nəzər saldıqda belə bir tarixi həqiqət göz önünə gəlir ki, mövcud olan ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə Azərbaycan xalqlar dostluğu, ölkəmizdə yaşayan xalqların dinlərinə, dillərinə, adət-ənənələrinə hörmət məkanı olmuş, dözümlülük, tolerantlıq məkanı kimi şöhrət tapmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyev tərəfindən ideya, elmi-nəzəri əsasları hazırlanan "Azərbaycançılıq" fəlsəfi konsepsiyasına müvafiq multikulturalizm dəyərləri daha da zənginləşdirilmiş, respublikamız dünyanın multikulturalizmi yaşadan, qoruyan, daha da inkişaf etdirən sabit bir ölkəsinə çevrilmişdir.

Azərbaycan xalqı əmindir ki, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi multikulturalizm dəyərlərinin daha da təkmilləşməsinə, bəşəriyyətin işıqlı gələcəyə doğru irəliləməsinə böyük töhfələr verəcəkdir.

Abuzər XƏLƏFOV,
Əməkdar elm xadimi,
Bakı Dövlət Universitetinin
fəxri professoru, Tarix elmləri doktoru,
BMT yanında Beynəlxalq
İnformasiyalaşdırma Akademiyasının
akademiki.